# AZƏRBAYCAN RESPUBLİKASI
# STANDARTLAŞDIRMA, METROLOGİYA VƏ PATENT ÜZRƏ DÖVLƏT KOMİTƏSİ
# RESPUBLİKA ELMİ-TEXNİKİ KİTABXANASI (RETK)

**Bakı şəhəri 1072, Aşıq Alı küçəsi, 5. Tel.: (994 12) 564-52-51; 564-52-59; Faks: 564-52-59 E-mail: retk95@mail.ru**

№ 17

14 iyun 2017-ci il

**"SINAM" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru cənab Əbülfət Rəhmanova**

Respublika Elmi-Texniki Kitabxanasına tətbiq olunan
"SERP" proqram təminatına

RƏY MƏKTUBU

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Respublika Elmi-Texniki Kitabxanasında SERP proqramı ("Müəssisə resurslarının idarə edilməsi sistemi") uğurla tətbiq edilmişdir. Kitabxananın bütün kadr və maliyyə-mühasibatlıq işi yeni sistemin tətbiq olunmasından sonra avtomatlaşmış bazada qurulmuş və tam elektron formaya keçirilmişdir.

Sistemin tətbiqi ilə Kadr və Mühasibat uçotu işinin təşkili və idarə edilməsi də operativləşmiş, sənədlər üzrə informasiyaların sistemə daxil edilməsi, həmçinin müxtəlif hesabat formalarının əldə edilməsi, uçotun tam dəqiqliklə aparılması təmin edilmiş, bununla da vaxt itkisinin qarşısı da kifayət qədər alınmışdır.

Tətbiq olunan yeni sistem Azərbaycan Respublikasının Əmək və Vergi Məcəlləsinə, Milli Hesablar planına uyğun qurulmuşdur. Sistemin üstün cəhətlərindən biri də hesablar planında və qanunvericilikdəki dəyişikliklərin və ya yeniliklərin sistemdə operativ şəkildə əks etdirilməsidir.

Tərəfinizdən göndərilən mütəxəssislərin işə tam məsuliyyətlə və vicdanla yanaşmalarını, yüksək professionallıq və mehriban münasibətlərini xüsusilə qeyd etmək istərdik.

Bu işin təşkilinə görə şəxsən Sizə və SİNAM şirkətinin kollektivinə dərin minnətdarlığımızı bildiririk və gələcək işlərinizdə müvəffəqiyyətlər arzulayırıq.

Direktor: Azadə Orucova

Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi
RESPUBLİKA ELMİ-TEXNİKİ KİTABXANASI